

Mənzər Niyarlı

# ÖLÜMLƏ ÜZ-ÜZƏ

## Rəfiqəm, istedadlı yazıçı, sənətşünas Sara xanıma

(əvvəli ötən sayımızda)

***

İndi çox qəribədir ki, bu ağır vaxtında ilk məhəbbəti - Ələkbər yadına düşmüşdü. Hətta gecələr yuxusuna da girirdi. Gördü ki, evlərinin qabağında qızılgül əkiblər və qışda heykəltəraşın öldüyü gün qızılgül açılır və Ələkbər həmin gülləri dərib bir qucaq ona gətirib. Ağ kostyumda, ağ köynəkdə, əlində al qırmızı qızılgüllər, utana-utana ona baxır. Özü də məəttəl qalmışdı. Bu ağır vəziyyətində, çətin anında ölümünə yaxınlaşdıqca Ələkbəri tez-tez xatırlayırdı. Bəlkə Həmidəni yanına aparmaq istəyir?

Özü cavan getdi. Deyilənə görə, axır vaxtlar düşkünləşmişdi, içirdi, adamlardan qaçırdı, indi Bakının ən gözəgəlimli yerində yapdığı heykəldən başqa Ələkbərdən heç bir iz qalmayıb. Heyif. Yaşasaydı, indi tanınmış heykəltəraşlardan biri sayılardı. Gərək, o vaxt Həmidə inadını qıraydı.

Ailə qurardılar, çətin anlarında bir-birlərinə həyan olardılar. Övladları olmasa da, tək qalmazdılar. Bəlkə, indi dünyanın ən xoşbəxt adamları idilər.

Ələkbərdən ayrılan vaxt Rəssamlar İttifaqından aldığı tək otaqlı, adamsız evində (onda satmamışdı) tənha yaşayır, nakam məhəbbətinin əzabını çəkə-çəkə heykəltəraşı unutmağa çalışırdı. Vaxt, zaman keçdikcə özünə gəlməyə başladı. Sonra mehrini qazanc dalınca Rusiyaya işləməyə gedən və orda da qəzaya uğrayan qardaşının oğluna saldı. Onun qayğı yükünü öz çiyninə götürdü. Anasıyla rayonda yaşayan qardaşı oğlunun əyin-başı, yeməyi onun üstündə idi. Aylıq məvacibini, ordan-burdan sifarişlə işləyib qazandığı pulları özünə xərcləsəydi nə dərdi. İndi bu dar günündə onun dadına çatacaq heç kəsə gümanı gəlmirdi. Özündən kiçik bacısı şəhərin qırağında - Alatavaların birində yaşayırdı. Ehtiyac onu əsəbi, tündxasiyyət eləmişdi. Əvvəllər də xudpəsəndliyi vardı. İnstitutda oxuya-oxuya tanımadığı, vecsiz bir oğlana ərə getdi. Bacısına bəhanəsi də bu idi ki, gərək Həmidə böyük bacı kimi qardaşı balasına himayədarlıq etdiyi kimi, onun da balalarının nəzərdə tutaydı. İndi gör neçə ay idi ki, bacısını görmürdü, nə də kiçik bacısı onu görməyə cəhd eləmişdi.Ürəyi sınmışdı bacısından. Bilir ki, tək yaşayıram, heç olmasa, telefonla da zəng vurub xəbər tutmur məndən.

Bu gün səhərdən fikrində tutmuşdu ki, gedib bacısını, uşaqlarını görsün. Kim bilir, bir də görə biləcəkdimi... Yolunun səmtini dəyişdi. Alatavaya getmək üçün iki marşrut dəyişməli idi. Çox yol gedəndə, silkələnəndə sinəsindən ağrılar başlayırdı. Bacısının evinə bir saatdan sonra çatdı. Həyət qapısını bacısı özü açdı. Başına alnına qədər yaylıq bağlamışdı. Əsəbi-əsəbi Həmidəylə öpüşdü.

**- Aya-günə dönmüsən. - Həmidəni sancmağından qalmadı.**

**- Eşitdim Almaniyaya getmisən. Mədəniyyət günləri keçirdirsiz oralarda.**

Həmidəni yol yorduğu üçün ağır-ağır nəfəs alaraq, üz-gözünü qırışdıra-qırışdıra evə keçib divanda oturdu.

**- Yox, gedə bilmədim. İşim çoxdu. - Daha demədi ki, yuxarıda onun adını silib başqasını salıblar.**

**- Bəxtəvərsən də. Nə uşaq dərdi çəkirsən, nə də ər tənəsini eşidirsən. Yoxsa mənim kimi. Evdə kişi, uşaqlar dığladır, məktəbdə də şagirdlərim divara dırmaşdırır. - Bacısı orta məktəbdə dərs deyirdi.**

"Bəxtəvər ha. Kaş, hamı mənim kimi bəxtəvər olaydı. Sən nə bilirsən mən nə haldayam". Birini bilirsən, Nəriş, o birini yox. Yaman ağrıyıram. - İstədi xəstəliyinin ciddiliyindən, döşündəki şişdən danışsın, bacısı imkan vermədi.

**- Eh, söz danışırsan da! Nolub sənə? Səndən də betər mən xəstəyəm. Fikirdən beynim çatlayır. Qızın dərdi məni götürüb. Sabah biri adını çəkib qapımı döysə, bilmirəm nə qoşacağam o tifilə. Allahın yununu ala bilmirəm ki, qıza yorğan-döşək düzəldim. Sən də başlamısan...**

Bacısına - anadan da artıq qayğısını çəkdiyi bacısına dərdini danışıb yüngülləşmək istəyirdi. Danışmaqdan vaz keçdi. Yarım saata qədər oturub bacısı uşaqlarının yolunu gözlədi. Bacısı uşaqları institutda oxuyurdular. Onların gəlməyinə xeyli vardı. Bacısının süzdüyü çaydan canı dərdi içib ayağa qalxdı. Bacısı çay süfrəsini yığışdırdı, iri boşqabda kartof gətirib soymağa başladı.

Şam yeməyinə, Həmidənin gəlişinə kartof qızardacaqdı. Həmidə bacısının qolundan yapışdı.

**- Soyma, Nəriş, şam yeməyinə qalmayacağam. Gedirəm. -**

**- Sumkasından şokalad qutusunu çıxarıb stolun üstünə qoydu.**

**- Ac gedəcəksən?**

**- Ac deyiləm, İştahım yoxdu. Sağ ol. - Qalxıb plaşını geyindi. Bacısının üzündən öpdü. Vaxtilə kirayə tutduqları evdə bir yerdə qalırdılar. O, qardaşı və özü. Bacısını qoymazdı tay-tuşlarından geri qalsın. Geyindirərdi, ayaqqabısı cırılardı ayaqqabı alardı, plaşı köhnələrdi, plaş alardı. Bacısı qız vaxtı da əsəbi idi. Deyingən idi. Bütün günü qruplarındakı qızların geyimlərindən danışardı. - Heyif, uşaqları görə bilmədim. Mənim yerimə üzlərindən öpərsən.**

Bacısıgildən çıxdı, kələ-kötür, əyrü-üyrü yolu keçəndə dönüb arxaya baxdı. Bacısı darvazanın ağzında dayanıb onun arxasınca baxırdı.

Doluxsundu. Bacısının onun xəstəliyi ilə maraqlanmaması Həmidəyə yaman yer eləmişdi. Tələbəlik illərində bacısı ona daha yaxın idi, indi aralarındakı bu soyuqluqdan özü də baş aça bilmirdi. Bu yaşında ürəyi yaxın rəfiqələrinə, ən çox da vaxtilə onunla bir yerdə - muzeydə işləyən, yaşı yetmişi haqlayan Firəngiz xanıma bağlıydı. Bu neçə gündə ürəyində Firəngiz xanımla da dərdləşirdi. Xəstəliyini ondan da gizlədəcəkdi. Xasiyyətinə bələd idi. Bilirdi ki, vəziyyətinin ağırlığını ona desə, halı qarışar. Onsuz da öz dərdi özünə bəsdir.

Şəhərdə avtobusdan düşüb Kitab passajının yanından keçəndə ayaq saxladı. Çoxdandı rəsmlərindən birini satmaq üçün İlqara vermişdi. Ürəyi əsə-əsə bir-bir satdığa qoyulmuş tablolara baxdı. Onun çəkdiyi "Xınalığın qızları" mənzərəsi hələ də sütunların birindən asılmışdı. Bilirdi ki, rəsmi satılsaydı, aldığı pul qəpik-quruş olacaqdı. Ona görə də maraqlanmırdı. İlqar rəsmlərin yanında bekar-bekar gəzişirdi.

"Yazıq İlqar əvvəllər necə həvəslə işləyirdi. Onunla bir yerdə rayonlara ezam olunardı. İllüstrasiyalar çəkərdi. Beş-on şirvan maaşla ailəsini dolandıra bilmədi. Bağını satıb getdi Türkiyəyə ki, orda başını girləsin. Qazandığını da ev kirayəsinə, işıq puluna, uşağının təhsil haqqına verirdi. Qayıtdı gəldi. Bir neçə ay işsiz dolandı.

Sonra başladı rəsm əsərlərini, evlərdən yığdığı antikvar əşyaları satmağa". Heyf,- Həmidənin yolu həmişə burdan düşəndə İlqara heyfslənərdi.

Öz işini - rəssamlığını davam elətdirsəydi, sorağı uzaqlardan gələrdi. İlqar özü haqda danışmağı sevməzdi. O dəfə İlqardan söhbət düşəndə kimsə dedi ki, arvadı Səmayə atıb onu, bir əcnəbiyə ərə gedib. Deyilənə görə, kişi Səmayədən iyirmi yaş böyükdü. Kimsə dedi ki, ərə getməyib, kişinin arvad-uşağı var, Səmayəni elə-belə saxlayır. Görən, uşaq kimin yanındadır, özü saxlayır, yoxsa arvadındadır?

İlqar Həmidəni görüb ayaq saxladı.

**- Rəssam xanımlara eşq olsun! - Əlini qaldırıb hay-küylə görüşdü. - Niyə belə sınıxmısan?**

İlqar ürəyiaçıq oğlandı. Kasıbçılıq, ailəsinin dağılması onu sıxsa da, şux zarafatından qalmır. - Biz çörək tapmırıq, sənə nolub, Həmidə xanım?

**- Heç, işim çoxdu.**

**- Doğrudan? İndi nə çəkirsən? Portret, yoxsa mənzərə?**

**- Sonra biləcəksən. - Candərdi gülümsədi. - Əvvəldən demək mənə düşmür. "Əzizim, uzaq başı bir aya biləcəksən.**

Rəssam rəfiqələrimdən biri burdan - keçəndə səni görüb qəfildən deycək: - "Eşitmisən, Həmidə xanım rəhmətə gedib. - Bilirəm, mənim ölüm xəbərimi eşidəndə əvvəlcə donub qalacaqsan. Sonra: "Necə yəni ölüb! - deyəcəksən. - Bu yaxında gördüm ki, onu yaxşı idi. Xeyli söhbət də elədik. Yox, deyəsən, bir az sınıxmışdı. Nədən rəhmətə gedib? "Xərçəngdən".

"Yazıq. Dəfni nə vaxtdı? Harda basdıracaqlar?"

Hə, doğrudan ha. Ölsəm məni harda basdıracaqlar? Eh, bu o qədər də çətin deyil, İttifaqın beş-on üzvü gəlib məşvərət aparacaq, götür-qoy edəcəklər. Bakının kəndlərində nə çox yer. Axır bir yer taparlar. Evdə qoyub iylətməyəcəklər ki.

Həmidə baxışlarını rəsminə - "Xınalığın qızları"na çevirdi.

**- Satılmır?**

**- Bizimkilər o qədər də maraqlanmırlar. Maraqlananlar da xaricilərdi. Səninkini bir danimarkalı istəyirdi. Vermədim.**

**Həmidənin ürəyi döyündü.**

**- Doğrudan?**

**- Nə bilim... Qiymətdə razılaşmadıq; otuz dollar verirdi.**

Götürmədim. O da acıq eləyib getdi.

**- Nahaq. - Həmidənin üzünə qəmginlik çökdü. Əcnəbilər rəsmlərin qiymətini öldürüb alırdılar. Düzdü, rəsmi satılsaydı da pulu yarasını sağaltmayacaqdı, ancaq necə olsa da, karına gələrdi.**

Tabloların bir neçəsini evində saxlayırdı.Saxlayırdı deyəndə, evinin divarlarına asmışdı. Sənətşünaslar, jurnalistlər onun fərdi sərgisinin nümayişindən sonra rəsmləriylə maraqlanırdılar. Bəzən bu rəsmlər onunla xarici rəssamlar arasında ünsiyyət, tanışlıq rolunu oynayırdı. Əvvəllər gənc rəssam qızla tanış olanlar, elə vaxt olurdu ki, rəsmlərdən çox, onun özünə vurulurdular. Hətta bir türk rəssamı ona evlənməyi təklif edəndə və rədd cavabını alanda Azərbaycanda həmişəlik qalıb yaşamağa da söz vermişdi. Rəssam qızsa onu sevənləri ustalıqla özündən uzaqlaşdırırdı. Çox vaxt da sevgi münasibətlərini başqa səmtə - dostluğa yönəldirdi. Bu səmimi dostluq, tanışlıq uzun müddət davam edirdi. Həmidə tanış olduğu sənət adamlarından da məktublar alar, ya da telefon vasitəsiylə əlaqə saxlayardı.



İlqardan ayrılıb Kitab passajının tinindən keçdi və evinə sarı buruldu. Bu gün özünü o ki var yormuşdu. Həm halsız idi, həm də ac. Səhər yediyinin üstündəydi. Evə gəlib soyuducunu açdı, iki gün əvvəl aldığı kolbasanı çıxardanda qolu yenə də döşünə toxundu. Ölüm xofu təzədən peyda oldu. İştahı pozuldu. Üzülmüş halda özünü yatağına saldı. Yorulmuşdu. Hər şeydən yorulmuşdu. Qarmaqarışıq fikirlər beynini çatladırdı. Alaqaranlıq otaqda gah gözünü tavana dikirdi, gah da pəncərədən süzülən işıq selinə. Hava get-gedə qaralırdı. Ömründə özünü bu qədər aciz, kimsəsiz hiss etməmişdi. Fikirlərini cəmləyib ayağa qalxdı. Çantasında - yanınca gəzdirdiyi atasının Quranını çıxarıb vərəqlədi. Ərəb dilini atası öyrətmişdi ona. Atası oxumuş, məlumatlı kişi idi. Oxuduğunun çoxu da orta əsrə və dinə aid kitablar. Əksər kitabları əski əlifbaydı.

Elə bu dini kitablara görə atasını otuzuncu illərdə işdən, məsul vəzifədən çıxartdılar. Hiss edirdi ki, Quranı oxuyanda yüngülləşir. Bir xeyli Quranı vərəqləyə-vərəqləyə yüz on yeddinci səhifəni açdı, Xud surəsindən ölümə, axirət dünyasına aid yerlərini oxudu, kövrəldi, xeyli hıçqıra-hıçqıra ağladı. Ağlamaq da ağır iş kimi insanı yorur. O da yoruldu və dərin yuxuya getdi. Yenə də yuxu gördü. Gördü ki, hardasa, hansı ölkədəsə sərgisi açılıb. "Qış mənzərəsi", "Yaylaqda", "Dəmir barmaqlıqların arxasındakı qadın", "Xınalığın qızları" rəsmləri divar boyu düzülüb. Tamaşaçılar bir-birlərinin çiyinlərinin üstündən boylana-boylana onun əsərlərinə baxırlar. Sonra sərgiyə gələnlər əllərindəki yaşıl əskinasları onun başına tökürlər. Osa utana-utana tamaşaçılara baxır və ucadan etiraz edib pulları əliylə itələyir.

**- Yox, əzizlərim, yox! Mənə bu qədər pul lazım deyil! Mənə ancaq əməliyyatın pulunu verin. Məni xilas edin! Başa düşürsünüzmü?! Məni xilas edin! - Necə qışqırdısa, öz səsinə ayıldı. Yorğanın altında yenə də onu tər basmışdı. Yuxudan kal ayıldığı üçün döyükə-döyükə o tərəf-bu tərəfə baxdı. Hava işıqlansa da, otaq qaranlıq idi. Əlini gecə lampasına uzadıb düyməni basdı, işığda divarlara göz gəzdirdi. Sağ tərəfdə, divanın söykəncəyinin üstündə "Dəmir barmaqlığın arxasında qadın" rəsmini asmışdı. Bu rəsmi ürək ağrısıyla işləmişdi. Çünki dəmir barmaqlığın arxasındakı qadını yaxşı tanıyırdı, ürəkdən bağlanmışdı Firəngiz xanıma. Düz iyirmi beş il muzeydə bir yerdə işləmişdilər. Firəngiz xanım sakit, qaradinməz, çöhrəsi həmişə qəmgin olan bir qadındı. Hətta gülələndə də gözlərindəki kədəri görməmək olmur. Gənclik illərini otuzuncu illərə təsadüf etdiyindən ürək ağrısıyla xatırlayırdı. Xatırlayırdı demək düzgün olmazdı. O vaxt tələbəydi, ata-anasının bircəsiydi. Təzəcə nişanlanmışdı. Sevirdi, sevilirdi və birdən hər şey alt-üst oldu. Firəngiz xanım indi ömrünün son günlərini yaşayır. O çətin illərdən sonra heç kəslə yaxınlıq etmir. Elə-belə, candərdi salamlaşır. Vəssalam. Ancaq ilk gündən mehrini Həmidəyə bağlamışdı. Həyatının facie dolu hadisələrini də ona danışardı. Həmidə də Firəngiz xanımla tanışlıqdan sonra**

"Dəmir barmaqlığın arxasında qadın" rəsmini - Firəngizin gəncliyini çəkdi və bu əsər ərsəyə gələn gündən ona uğur gətirdi. Fərdi sərgilərinin nümayişindən sonra jurnalistlər ən çox bu rəsmdən yazırdı. Tablodakı gənc qadının barmaqlığın arxasından ümidsizmi, heyrətləmi, yoxsa təəccüblümi baxan gözləri Mono Lizanın gözləri kimi təhlil olunar, bəzən də mübahisə mövzusuna çevrilərdi. O rəsmi Həmidə evində saxlayırdı. Qorxurdu ki, rəsm muzeydə it-bata düşər. Firəngiz xanım bəzən ağrıyan ayaqlarını sürüyə-sürüyə ona baş çəkməyə gələndə bir gözü şəklində qalırdı. Həmidə hiss edirdi ki, arvadı bu evə gətirən bu rəsm əsəridir.

İşığı təzədən söndürüb gözünü tavana dikdi. Qatmaqarışıq fikirlər beynini yormuşdu. Yata bilmirdi. Ya oturub ölümünü gözləməliydi, ya da pul tapmalıydı.

Get-gedə hava işıqlaşır, səhər açılırdı. Saata baxdı. İşə getsinmi? Görən, orda kimdən borc ala bilər? Orxandan? Yox, Orxanda o qədər pul nə gəzir. Ancaq olsaydı heç vaxt əsirgəməzdi ondan. Bəlkə Dilşaddan. Yox, heç vaxt. Dilşadın geydiyi paltarlardan, iki min dollarlıq şubasından (özü demişdi qiymətini) hiss olunur ki, kalandır. Ancaq ürəyi sınmışdı bu xudpəsənd qızdan. O dəfə otaqda olmayanda onun haqqında

"Bu qarımış qız da özünü mətah yerinə qoyub" demişdi.

Durdu, həvəssiz-həvəssiz geyinib evdən çıxdı. Hər gün salamlaşdığı, kefini soruşduğu dilənçi yenə də həmin yerində səssiz-səmirsiz dayanıb, əlini gəlib-gedənə açmışdı. Dilənçi qadın onu görməsin deyə, səmtini dəyişdi. Az qalıb, daha bu yerdən keçməyəcək. Tezliklə yaz girəcək, havalar da qızaraq, ağaclar növbənöv çiçək açacaq. Əvvəlcə alça çiçəklənəcək... Dilənçi qadının həyətində onun sevdiyi güllər də qönçələnəcəkdi. Dilənçi qadın bir-iki dəfə ona həyətindən dərdiyi çöl güllərindən gətirmişdi. Hə, bir azdan bir dəstə güllə onun yolunu gözləyəcəkdi (söz vermişdi ki, yaz gələndə sənə bir dəstə gül gətirəcəyəm), güllər solana qədər gözləyəcəkdi və onun həyatı kimi, çiçəklər də solacaqdı, büzüşəcəkdi, iylənəcəkdi. Dilənçi qadın dodağının altında mızıldana-mızıldana, deyinə-deyinə gülləri yanındakı zibil yeşiyinə tullayacaqdı. Əlinə pul düşən kimi dilənçiyə tez-tez çörək pulu verərdi. Keçən il yun jaketini, çoxdan istifadə etmədiyi şarfını da ona bağışlamışdı.

Çiçəkləri yaman sevirdi. Qızılgülün, onun ətrinin dəlisiydi. Özəl işində də dibçəklərdə gül əkmişdi. O, rayonlara ezam olunanda kompüterin arxasında işləyən qızlar günaşırı gülləri sulayırdılar. Adını da qoymuşdular "Həmidə xanımın çiçəkləri".

İçəri keçəndə iş yoldaşlarının bəziləri kompüterin arxasındaydı. Kömpüterin dəyirman uğultusuna oxşar səsi otağın sükutunu pozurdu. Onu görüb işdən ayrılmasalar da başları ilə salamlaşdılar. Keçib onun üçün ayrılmış mizin arxasında oturdu. İstədi bir az başını işlə qatsın, hövsələsi çatmadı. Gülləri sulamaq lazımdı. Pıçıltıyla qonşu mizin arxasında oturan əlində siçan (fari), gözü kompüterin ekranında qalan, cins şalvar geyinmiş Gülərə müraciət etdi: - Güli, çaynik hardadır? Gülləri sulamaq istəyirəm.

Gülər başını döndərmədən:

- Narahat olmayın, Həmidə xanım, - dedi.

- Güllər sula- nıb.

- Doğrudan! - Əlləriylə güllərin ləçəklərinə sığal çəkdi. - Güli, mən səndən çox xahiş edirəm. Mən olmasam, gözün bu dibçəklərdə olsun. Sulamağı unutma, yaxşı?

- Necə yəni mən olmasam. - Gülər təəccüblə Həmidəyə tərəf baxdı. - Həmidə xanım, harasa gedirsiniz?

- Hə, hə, ona oxşar bir şeydi. - Gözləri dola-dola gülümsündü.

- Arxayın olun. Nə lazımdır edərik, - dedi.

Kabinetin qapısı yarıaçıq olduğu üçün içəri görünmürdü.

- Bilmirsən, Natiq müəllim içəridədir?

- Bir az olar gəlib.

Sinəsinin sancısı yenə tutdu. Bu küt sancı onu müdirin yanına keçmək üçün daha da ürəkləndirdi. Üz-gözünü qırışdırıb qapıya sarı getdi. Qapını yavaşca taqqıldatdı:

- Buyurun. - Müdir başını qaldırıb: - Safarovna,- dedi, -

Xeyir ola? - İşçilərin hamısını atasının adı ilə rusca çağırardı.

- Sonra Həmidənin qısa vurulmuş ağlı-qaralı saçlarına, rəngi avazımış üzünə, qəmli gözlərinə baxdı.

- Heç, Natiq müəllim, ola bilsin mən bir həftə işdə olmadım. Xəstəhalam. Bir də. - Gözləri yaşardı. - Mənə pul lazımdı. Təcili. Əgər varsa Sonra maaşımdan çıxılar.

- Pul? - Natiq müəllim əlini cibinə salıb eşələdi: - Nə qədər?

- Beş yüz dollar.

- Nə? Beş yüz dollar? Vallah, o qədər pulum yoxdu. Ancaq əlli dollar verə bilərəm. - Cibindən eşələdiyi pullar əlindəydi. İstədi ovcunda gizlətsin. Bacarmadı, öz-özünə mızıldandı. Bu da kompüterin puludur. Şöbəyə kompüter almalıyam. - Pulların arasından əlli dolları çıxarıb Həmidəyə uzatdı. Həmidə istədi pulu götürməyə. Fikirləşdi ki, Natiq müəllim buna başqa mənə verər, ya da inciyər.

(ardı növbəti sayımızda)